# Sosial psixoloji deprivasiya: səbəbləri və nəticələri

**Rəna Türbətova**
*fəlsəfə doktorluğu hazırlığı üzrə dissertant,*
*BDU*
**E-mail:** renaaskerova@yahoo.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** deprivasiya, sosial deprivasiya, deprivasiya olunmuş uşaqlar, internatlar, yeniyetməlik dövrü

**Ключевые слова:** депривация, социальная депривация, депривированные дети, интернаты, подростковый возраст

**Key words:** deprivation, social deprivation, deprived children, boarding houses, adolescence

Sosial psixoloji deprivasiya – sosial mühitdən izolyasiya şəraitində formalaşır. Sosial deprivasiya tam və hissəvi ola bilər. Hissəvi deprivasiya ailənin ucqar yerdə yaşamasından və ya onun ətraf aləmdən qapalılığından ibarət olur. Tam deprivasiya isə insanın uzun müddət tək və ətrafla heç bir əlaqəsi olmayan şəraitdə yaşaması zamanı yaranır.

Sosial deprivasiyanın yaranması və nəticələri insanın yaşından və onun təcrid olunma müddətindən asılıdır. İnsan psixologiyasında ən ağır dəyişmələr onun erkən yaşlarından təcrid olunduğu hallarda yaranır [1, 23].

Sosial psixoloji deprivasiyanın yaranması müxtəlif səbəblərdən asılı ola bilər, lakin hər zaman sosial adaptasiya prosesini çətinləşdirir.

Sosial deprivasiyanın əsas səbəblərindən biri uşağın kommunikativ aktivliyinin aşağı düşməsidir. Müxtəlif yaşlı deprivasiya olunmuş uşaqlarda digər insanlarla ünsiyyət qurmaq istəyinin azalması müşahidə olunur. Məsələn, çağalıq, körpəlik dövründə zəif göz kontantı ilə, aşağı aktivliklə, apatiya ilə; böyüklərdə isə maraqların az olması ilə, az ünsiyyət ilə özünü göstərə bilər. Bununla belə onlarda bəziləri isə ünsiyyətcilliklə, diqqət cəlb etməklə seçilirlər.

İ.V. Yarovlavtsev tədqiqatlarında göstərmişdir ki, sosial deprivasiya şəraitində birgə yaşamaq və fəaliyyət göstərmək kimi dəyərlər aşağı düşür. Birgə fəalliyyət – sosiallıq deprivasiya olunmuş uşaq və yeniyetmələrdə özünü müxtəlif cür göstərir: bəziləri kənarlaşmış, digərlərinə qarşı tənqidi yanaşan müstəqil, digərləri isə hərəkətlərində sərbəst olurlar, qrupun maraqlarına diqqət edən və birgə işlərdə iştirak edən olurlar. İnsanlarda əməkdaşlıq etdikdə belə yeniyetmələr təşkilatsızlıq, nadürüstlük, qeyri-sabitlik göstərirlər ki, bu da onların hərəkətlərində özünə kontrolun və müstəqilliyin tam formalaşmamasının göstəricisidir [4, 54-58].

Tədqiqatlarda internatlarda böyüyən, deprivasiya olunmuş uşaqlarda müstəqil yaşamaq və davranışın səviyyəsi göstərilmişdir. Bu tədqiqatlarda deprivasiya olunmuş yeniyetmə və gənclərdə effektiv adaptasiyanın şərtləndirən əsas xüsusiyyətlərin – fiziki inkişaf, sağlamlıq vəziyyəti, vətəndaşlıq və mənəvi dəyərləri, şəxsiyyətin iradi təşkili – kifayət qədər formalaşmadığı aşkar olunmuşdur. Şəxsiyyətin emosional, koqnitiv və digər sferalarının kənara çıxmaları deprivasiya olunmuş gənc oğlan və qızlarının müstəqil həyata mənəvi-iradi hazırlığının aşağı səviyyəsini göstərir.

Yetim oğlan və qızların əksəriyyəti ünsiyyətcil olduqları halda onlar təşkilati işlərə meyl etmirlər və kollektiv tədbirlərin təşkili və keçirilməsində çətinlik çəkirlər. Belə uşaqlarda empatiya hissinin orta səviyyədən aşağı olduğu üçün onlarda dostluq münasibətləri və başqa insanlarla etibarlı münasibətlər qurmaqda çətinliklər yaranır. Onların əksəriyyəti başqa insanlara münasibətdə yüksək düşmənçilik münasibətləri xarakterizə olunurlar. Bəziləri isə başqalarına qarşı aqressiya göstərirlər. Yetim oğlan və qızların yarısı yuxarı özünüqiymətləndirməyə malikdirlər ki, bu da onlara özlərini və bacarıqlarını adekvat qiymətləndirməyə mane olur. Nəticədə şəxsiyyətlərarası münasibətlərində çətinliklər yaranır.

Deprivasiya olunmuş uşaqlarda həmçinin – müstəqil həyata iradi hazırlıq, qərar qəbulu, onlara görə məsuliyyət hissi, davranışın özünütənzimi; inkişaf etmiş özünüdərk və adekvat özünüqiymətləndirmə, davamlı emosional fon, stressə dayanıqlıq; inkişaf etmiş kommunikativ bacarıqlar, empatiya hissi aşağı inkişaf səviyyəsindədir [5, 67].

Deprivasiya olunmuş yeniyetmələr insanların davranışını başa düşmək və proqnozlaşdırmaqda çətinlik çəkirlər. Bu da öz növbəsində qarşılıqlı münasibətləri çətinləşdirir və cəmiyyətə adaptasiyanı aşağı salır.

Yeniyetməlik dövründə öz həyatının, gələcək istiqamətinin tam aktiv dərk edilməsi baş verir, zaman perspektivlərin istiqaməti müəyyənləşməyə başlayır. Deprivasiya şəraitində yaşayan yeniyetmələrdə (məsələn, tam dövlət öhdəçiliyində olan internat müəssisələrində) yeniyetməlik dövrünün yenidən təşkilində zaman perspektivləri təhrif olunmuşdur. Bu onların gələcəyə baxışlarında özünü daha qabarıq göstərir.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ailələrdə yaşayan yeniyetmələrin zaman perspektivləri uşaq evlərində yaşayan yeniyetmələrin perspektivlərindən daha dərindir. Kütləvi məktəblərdə oxuyan uşaqlarda (əsasən böyük yeniyetmə yaşında) reallaşması uzaq gələcəkdə olan motivlər (universitetə qəbul olmaq, ailə qurmaq, peşə fəaliyyətində uğurlar əldə etmək) üstünlük təşkil etdiyi halda, uşaq evlərinin uşaqları üçün bu motivlər əsasən bugün ki günlə bağlı olur (kinoya baxmaq, idmanla məşğul olmaq, ev tapşırıqlarını etmək). Ailədən olan yeniyetmələrin motivləri daha çox konkret planlar ilə bağlı olur ki, bunlarda dəqiq zaman çərçivəsində reallaşır. Lakin deprivasiya olunmuş yeniyetmələrdə zaman perspektivləri tam qurulmayıb və konkret məqsədlərdə xoşbəxtlikdə və uğur qazanmaqda özünü göstərmir. Belə olduqda deprivasiya olunmuş uşaqlarda uzaq perspektivlər ifadə olunmamış qalır.

Ailədə olan uşaqlarda keçmişləri həmişə onların (albomlarda, mənzilin interyerində, ailə ənənələrində) həyatında iştirak edir. Deprivasiya olunmuş uşaqlarda isə ailələri haqqında xatirələri azdır, onların keçmişi adətən neqativ təəssüratlarla doludur. Öz keçmişi haqqında dəqiq təsəvvürlərinin olmaması onların gələcək perspektivlərinin qurulmasına mane olur [6, 84].

Deprivasiya olunmuş yeniyetmələrin müvəqqəti perspektivi qeyri-real olduğu üçün onlar gələcəklə az bağlı olur. İnternat müəssisələrində yaşayan yeniyetmələrdə öz həyatlarına münasibətləri inkişaf etmir. Deprivasiya olunmuş yeniyetmələr öz həyatlarını, gələcəklərini dəyişmək imkanı olmayan qaçınılmaz kimi qəbul edirlər və məsuliyyəti taleyin və ya digər insanların üstünə atırlar.

Tam dövlət himayəsində olan internatlarda yaşayan uşaqlarda nəinki "parazit" mövqe ("bizə borcludurlar", "versinlər") formalaşır, həmçinin öz hərəkətlərini dərk etmək və cavab vermək qabiliyyəti aşağı düşür. Bu onların öz gələcəklərini və zaman perspektivlərini qurmaqda aktivliklərini aşağı salır [2, 265].

Deprivasiya olunmuş uşaqlar daha çox indiki vaxtla yaşayırlar. Bununla belə onlarda

indiki həyatlarını dərk etmək zəif ifadə olunur. Onların həyatlarını istiqamətləndirən dəqiq məqsədləri yoxdur, onlar üçün uğura istiqamətlənməmək xarakterikdir, onlar həzz almaq və məmnuniyyətə istiqamətlənirlər. Bundan əlavə yetim uşaqlarda özlərini həyat fəaliyyətlərinin bir subyekti kimi dərk etmək səviyyəsi aşağıdır.

Gələcək zaman perspektivlərinin əsas hissəsindən biri də peşə perspektivləridir. Motivlərin bu qrupu da deprivasiya olunmuş yeniyetmələrdə əhəmiyyətli dərəcədə aşağı səviyyədədir. N.N. Tolstıxın tədqiqatlarında (1984,1987) göstərmişdir ki, uşaq evlərinin uşaqlarında peşə perspektivləri motivləri gözəgörünməz dərəcədədir və aktual həyat fəaliyyətinin dövrünə və yaxın gələcəyə aid olur. Deprivasiya olunmuş yeniyetmələrin peşə seçimi kifayət qədər olmayan azad seçimlə və az olan müstəqil qərar qəbulu ilə regional və lokal şərtlərlə məhdudlaşır.

Peşə seçimi uşaqların təhsil aldıqları tam dövlət öhdəsində olan təhsil müəssisələrinin imkanları ilə müəyyən edilir [3, 100].

Sosial psixi deprivasiyanın nəticələrini dəff etmək çətindir. Sosial psixi deprivasiyanın nəticələri həyat və fəaliyyətinin müxtəlif sahələrində sosial psixoloji dizadaptasiya ilə özünü göstərə bilər.

**Məqalənin aktuallığı.** Cəmiyyətdə sosial mühitdən izolyasiya şəraitində formalaşan sosial-psixoloji deprivasiya olunmuş uşaqlar az deyil. Həmin uşaqların cəmiyyətə adaptasiyası üçün sosial deprivasiyanın yaranma səbəblərini üzə çıxarmaq və nəticələrini araşdırmaq baxımından məqalə aktual hesab olunmalıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə internatlarda böyüyən, deprivasiya olunmuş yetim uşaqlarda müstəqil yaşamaq və davranış səviyyəsinin göstərilməsi üçün müxtəlif tədqiqatların nəticələrinə istinad olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Кондратьев М.Ю. Социальная психология закрытых образовательных учреждений. СПб.: Питер, 2005.

2. Прихожан А.М. Психология сиротства / СПб.: Питер, 2005.

3. Психическое развитие воспитанников детского дома / Под ред. И.В. Дубровиной, А.Г. Рузской М.: Педагогика, 1990.

4. Ярославцева И.В. Особенности социально-психологической адаптации детей-сирот // Соц.-психол. аспекты образования: меж.-вуз.сб.науч.тр. Иркутск, 1999.

5. Ярославцева И.В. Психология депривированного подростка. Иркутск, 2000.

6. Ярославцева И.В. Деппивированный подросток: личностный и психофизиологические особенности развития: Автореф. дис. …д-ра психол. наук. М.: МПГУ, 2003.

7. Ярославцева И.В. проблема адаптации-дезадаптации детей с позиций психологии личности // построение гражданского общества: материалы Междунар.гуманит.конгр. Ч.1. Иркутск: Изд-во Иркут.гос.пед.ун-та, 2004 .

**Р. Турбатова**

## Социальная психологическая депривация: причины и результаты

### Резюме

Статья о «социальной депривации», посвящена формам ее проявления, причинам и последствиям, к которым она приводит. Также внимание удалено отличительным чертам детей, растущих в условиях социальной депривации. В статье были анализированы будущие перспективы детей, воспитанных в домах интернатах, уровень их подготовки к самостоятельной жизни, коммуникативные навыки, мотивация, выбор профессии.

**R. Turbatova**

## Social psychological deprivation: causes and results

### Summary

The article deals with "social deprivation", its manifestation forms, causes and consequences. The distinctive features of the deprived children have also been focused on. The future perspectives of children raised in intern at homes, their independent life preparation, communication skills, motivation, professional choices have been compared with those that have been raised in families.

**Redaksiyaya daxil olub:** 01.03.2018